Azərbaycan Respublikası
"SİQNAL 2026"
ictimai nəzarət təşkilatı
www.nezaret.info
Email:ictimai.2026@gmail.com

Republic of Azerbaijan
"SIGNAL 2026"
Public oversight organization
Tel: +994503599211
TIN 1407530171

## *AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENT ADMINISTRASIYASI*

**Tarix:** 29.01.2026

**Qeydiyyat №:** 001

**Məktub:** "Siqnal 2026" ictimai nəzarət təşkilatının fəaliyyətinə şərait yaradılması barədə

## HÖRMƏTLI CƏNAB PREZIDENT,

Mən, **Sevinc Quliyeva**, "Siqnal 2026" Məhdud Məsuliyyətli Cəmiyyətin təsisçisi olaraq Sizi hörmətlə məlumatlandırmaq istəyirəm ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən 30 aprel 2007-ci il tarixdə imzalanmış fərmana əsasən "bir pəncərə" prinsipi ilə dövlət qeydiyyatına alınmış **"Siqnal 2026" MMC** 26 yanvar 2026-cı il tarixdə rəsmi qeydiyyatdan keçmişdir.İdarə heyətinin qərarı ilə Cəmiyyətin tərkibində **ictimai nəzarət təşkilatı** yaradılmışdır. Təşkilatın əsas məqsədləri aşağıdakılardır:

**1.Dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi;**
**2.Vətəndaş müraciətlərinin obyektiv araşdırılması və hüquqlarının qorunması;**
**3.Bu gün qalib Azərbaycanda qanunların aliliyinin qorunması istiqamətində monitorinqlərin, təlimlərin, maarifləndirici tədbirlərin təşkili;**
**4.Ulu Öndər Heydər Əliyevin siyasi kursunun gələcək nəsillərə aşılanması;**
**5.Qanunvericilik, vətəndaş cəmiyyəti və ictimai nəzarət sahəsində seminarların və digər ictimai fəaliyyətlərin həyata keçirilməsi.**

Bildiririk ki, yaradılmış ictimai nəzarət təşkilatı öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və digər normativ-hüquqi aktlara tam uyğun şəkildə həyatakeçirməyi planlayır. Təşkilatın Azərbaycan Respublikasının bütün bölgələrində qanunçərçivəsində fəaliyyətini təmin etmək üçün yerli icra hakimiyyətləri tərəfindən müvafiq dəstək və şəraitin yaradılması zəruridir.

***SİZDƏN XAHİŞ EDİRİK Kİ, YERLİ İCRA HAKİMİYYƏTLƏRİNƏ MÜVAFİQ MƏLUMAT VERİLSİN VƏ "SİQNAL 2026" İCTİMAİ NƏZARƏT TƏŞKİLATININ FƏALİYYƏTİNƏ KÖMƏKLİK GÖSTƏRİLSİN.***

Zati-alinizə dərin hörmət və ehtiramımızı bildiririk.

Hörmətlə: Sevinc Quliyeva

İmza: "Siqnal" İctimai Nəzarət Təşkilatı